**AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI**

№ 53

**Bakı şəhəri** "4" 02 **2025-ci il**

**Latviya Respublikasının və Litva Respublikasının qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyinin tanınması haqqında**

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsinə əsasən, xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi və xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli 2442 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası" (bundan sonra – Qayda) ilə tənzimlənir.

Qaydanın 6.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda müəyyən edilən məhsulların Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi qida obyektlərinin Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təsbit edilməsi, ticarət tərəfdaşı olan ölkələrlə əməkdaşlığın artırılması və təkrarlanan prosedurların aradan qaldırılması məqsədilə xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyini tanıyır.

Qaydanın 6.3-cü bəndinə əsasən, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması zamanı əsas meyarlar qismində qida və yem məhsulları ilə bağlı ticarət dövriyyəsi zamanı müəyyən edilmiş qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunsuzluqların statistikası, xarici ölkənin qida təhlükəsizliyi sisteminin, o cümlədən yoxlama və nəzarət sistemlərinin Azərbaycan Respublikasında tətbiq edilən sistemlə uyğunluğu və xarici ölkənin qida təhlükəsizliyi sisteminin Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının Kodeks Alimentarius Komissiyasının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına uyğunluğu nəzərə alınır.

Qeyd olunan meyarlar əsasında Latviya Respublikasının və Litva Respublikasının qida obyektləri üzrə təsdiq sistemləri Agentliyin aidiyyəti struktur bölmələri tərəfindən araşdırılmış və həmin ölkələrin təsdiq sistemlərinə dair texniki normativ hüquqi aktların tələblərinin Azərbaycan Respublikasında bu sahədə qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Bununla əlaqədar, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.5-ci maddəsini və Qaydanın 6.1-ci, 6.3-cü və 6.4-cü bəndlərini rəhbər tutaraq, Agentliyin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** Latviya Respublikasının və Litva Respublikasının qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyi tanınsın.

**2.** Agentliyin Aparatının Beynəlxalq əlaqələr və protokol şöbəsi Latviya Respublikasının və Litva Respublikasının qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyinin tanınmasına dair qərar barədə 7 (yeddi) iş günü müddətində xarici səlahiyyətli qurumlara diplomatik kanallar vasitəsilə rəsmi məlumat verilməsini təmin etsin.

**3.** Agentliyin Aparatının İdxal və ixraca nəzarət şöbəsi qida obyektləri üzrə təsdiq sistemlərinin ekvivalentliyi tanınan ölkələrdən idxal olunan qida və yem məhsullarına münasibətdə Qaydanın 6.9-cu bəndinə uyğun nəzarətin davamlı icrasını təmin etsin.

**4.** Agentliyin Kollegiyasının məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**5.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2025-ci il 4 fevral tarixli 41 nömrəli iclas protokolu.

**Kollegiyanın sədri,**
**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyinin sədri** **Qoşqar Təhməzli**